İ.X. ƏLƏKBƏROV

M.M. AXUNDOV

# AZƏRBAYCANDA ƏMTƏƏ NƏRƏÇİLİYİNİN İNNOVASİYA METODU İLƏ YARADILMASI VƏ İNKİŞAFI KONSEPSİYASI



# AZƏRBAYCANDA ƏMTƏƏ NƏRƏÇİLİYİNİN İNNOVASİYA METODU İLƏ YARADILMASI VƏ İNKİŞAFI KONSEPSİYASI

*Azərbaycanda intensiv əmtəə nərəçiliyi konsepsiyası AMEA-nın və Azərbaycan Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun əməkdaşları ilə birgə 2013-2014-cü illərdə aparılmış tədqiqatların nəticəsidir. Tədqiqatlar Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilmişdir ( №EİF-2012-2(6)-39/23/3-M-27).*

*Burada dərc olunan materiallar AMEA-nın Rəyasət heyətinin iclasında məruzə edilmişdir. Bundan əlavə, 2014-cü ilin 2-5 iyun tarixlərində Bakı Biznes Mərkəzində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı (FAO) "Mərkəzi Asiya və Qafqazda balıqçılıq təsərrüfatı və akvakultura sahəsində Regional Komissiya"nın (CACFish) növbəti 3-cü Sessiyanda, 5 iyun tarixində FAO-Türkiyə əməkdaşlıq proqramı çərçivəsində fəaliyyət göstərən "FishDev-Mərkəzi Asiya" proqramı ilə bağlı müxtəlif layihələrin yerinə yetirilməsi və gələcək layihələrin müəyyən edilməsinə dair yığıncaqda müzakirələr aparılmış və qərarlar qəbul edilmişdir. Müzakirələrdə, digər layihələrlə yanaşı, o cümlədən də Azərbaycan Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən "Azərbaycanın akvakultura üçün qapalı su sistemlərinin tətbiqi" layihəsi ilə bağlı FAO-nun texniki yardımı çərçivəsində akvakultura sahəsində beynəlxalq ekspertlərin tövsiyələri nəzərə alınmış, yaxın zamanda bu layihənin inkişafı üçün fəaliyyət proqramının müəyyən olunması və gələcək işlərin həyata keçirilməsi üçün tədbirlər planı hazırlanması barədə qərar qəbul edilmişdir. 5 iyun tarixində "FishDev-Mərkəzi Asiya" proqramı üzrə sessiyanın işində AMEA-nın Zoologiya İnstitutunun direktoru İlham Ələkbərov, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun direktoru Mehman Axundov iştirak etmişdirlər.*